Avqustun 1-dən 14-dək Elm və Təhsil Nazirliyi, eləcə də qurumlarına 46 419 vətəndaş müraciəti daxil olub.

Müraciətlərin 30 149-u çağrı mərkəzləri, 563-ü sosial media, 5 532-si "WhatsApp" vasitəsilə, 3 203-ü elektron, 1 080-i yazılı formada yönləndirilib. Vətəndaş qəbulu zamanı isə 5 892 müraciət qeydə alınıb.

Müraciətlər şagird yerdəyişməsi, müəllimlərin işə qəbulu, məktəbəqədər təhsil müəssisələrinə qəbul, tələbə köçürülməsi, Dövlət Proqramı, peşə təhsili müəssisələrinə qəbul və digər məsələlərlə bağlı olub.